**Əliyev B.Ə., Kələşova X.X.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.58.31-48**

# Azərbaycan Respublikasında ekoloji təhlükəsizliyin təmin edilməsinin bəzi problemləri və onların həlli yolları

**Xülasə**: Ekoloji problemlərin həlli və ekoloji təhlükəsizliyin təmini məsələləri Azərbaycan Respublikasının Konstitusiyası və onun əsasında qəbul olunmuş müvafiq qanunvericilik aktları ilə tənzim olunur.

Ölkəmizdə ekoloji təhlükəsizliyin təmin edilməsinin əsas hüquqi bazası "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunudur. Bu qanunun əsas məqsədi - insanın həyatını və sağlamlığını, cəmiyyəti, onun maddi və mənəvi dəyərlərini, ətraf mühiti, atmosfer havası, kosmik fəza, su obyektləri, yerin təki, torpaq, təbii landşaft, bitki və heyvan aləmini təbii və antropogen amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorumaq üçün hüquqi əsasları müəyyən etməkdən ibarətdir.

Qeyd olunmalıdır ki, "ekoloji təhlükəsizlik" atom, nüvə təhlükəsizliyi kimi bəşəriyyəti narahat edən təhlükəsizlik növlərindən biridir. 4 iyun 1999-cu il tarixdə "Ekoloji təhlükəsizlik" haqqında Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur. Ekoloji təhlükəsizlik dedikdə insanların və cəmiyyətin həyatı vacib maraqlarının, ətraf mühitin antropogen və təbii təsirləri nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsi başa düşülür.

Ekoloji təhlükəsizliyin məqsədi insanın həyatını və sağlamlığını, cəmiyyəti, onun maddi və mənəvi dəyərlərini, ətraf mühiti, o cümlədən atmosfer havası,

---

[♦]**Əliyev Bəxtiyar Əbdürəhman oğlu** - h.ü.f.d.,dosent, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin müdiri (Azərbaycan). E-mail:antiterror-baku@mail.ru

**Kələşova Xəyalə Xəqani qızı** - AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin böyük elmi işçisi (Azərbaycan). E-mail: xayala_kalashova@yahoo.com

kosmik fəza, su obyektləri, yerin təki, torpaq, təbii landşaft, bitki və heyvanlar aləmini təbii və antropogen amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorumaqdır.

Ekoloji təhlükənin əsas yaranma səbəbləri aşağıdakılardır:

- İnsanların məskunlaşdığı mühitin əlverişli şəraitinin qorunub saxlanılmasına təbiət, cəmiyyət və insanın qarşılıqlı təsirinin təbii mexanizminə təsir dərəcəsi nəzərə alınmadan ictimai, iqtisadi, texnoloji problemlərin həll edilməsi təcrübəsi;
- Təbii mühitin ən şiddətlənən çirklənməsi və dağılması. Planetdə və xüsusilə sənayesi güclü inkişaf etmiş, təbii ehtiyatların çox mənimsənildiyi regionlarda ekoloji tarazlığın pozulması. Təbii ətraf mühitin qeyri-effektiv mühafizəsi;
- Ərazidə ekoloji və antropogen yükün qeyri bərabərliyi, torpaqların məhsuldarlığının itməsi, içməli su ehtiyatının tükənməsi, flora və fauna genofondunun azalması və itməsi;
- Yeni xəstəliklərin yaranması, ölüm halları səviyyəsinin artması ilə ekoloji vəziyyəti pozan amillərin təsiri altında bilavasitə əlaqənin ictimai, dövlət və hüquqi cəhətdən qiymətləndirilməməsi;
- Ekoloji təhlükəsizlik əsaslarının əhaliyə tədris etmə forma və üsullarının təkmilləşdirilməmiş olması, ekoloji anlayışın aşağı səviyyədə olması.

Ekoloji təhlükəsizliyin bəzi tərkib hissələrinin məzmununa daxildir:

Ekoloji təhlükəsizlik sistemi - biosfer ilə antropogen, həmçinin təbii xarici qüvvələr arasında tarazlığın qorunub saxlanılmasına yönəlmiş qanunvericilik, texniki, tibbi və bioloji tədbirlərin toplusudur.

Ekoloji təhlükəsizliyin subyektləri – insan, cəmiyyət, dövlət, biosfer.

Ekoloji təhlükəsizliyin obyektləri – təhlükəsizlik subyektlərinin həyatı vacib maraqları: insan hüquqları, maddi və mənəvi tələbat, dövlət və cəmiyyətin inkişafının əsası kimi təbii ehtiyatlar və təbii mühit.

Sağlamlıq – sadəcə xəstəliklərin olmaması deyil, fiziki, psixi və sosial rifahın tam olaması vəziyyətidir.Təhlükəsizliyin məqsədi təkcə əhalinin sağlamlığının mühafizəsi deyil, həm də ətraf mühitin qorunması olduğundan, onun vəziyyətini və keyfiyyətini kəmiyyətcə qiymətləndirən göstəriciləri də müəyyən etmək vacibdir. Belə göstəricilərə ekosistemin vəziyyətinin onun sabitlik sərhəddinə yaxınlıq dərəcəsi aid edilir.

**Açar sözlər**: ekoloji təhlükəsizlik; ekoloji risk; milli təhlükəsizlik konsepsiyası; ətraf mühitin mühafizəsi; ekoloji tarazlıq; ekoloji problemlər; ekoloji vəziyyət.

Davamlı inkişafın təmin olunmasında əsas amillərdən olan ekoloji təhlükəsizlik məsələləri milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsidir. Öz strukturuna görə və milli prioritetinə görə ekoloji təhlükəsizlik bir çox ölkələrdə milli təhlükəsizlik strategiyasının tərkib hissəsinə daxil edilmişdir. Dünya birliyinin bərabərhüquqlu üzvü olan Azərbaycan da öz Milli təhlükəsizlik konsepsiyasında ekoloji təhlükəsizlik məsələlərinə ekoloji problemlərə və mövcud ekoloji təhlükə mənbələrinə xüsusi diqqət yetirmişdir.

Bununla əlaqədar Azərbaycanın Milli təhlükəsizlik konsepsiyasının (MTK) “Ekoloji problemlər” adlanan hissəsində respublikamızda potensial ekoloji təhlükə mənbələri göstərilmişdir. Bunlardan biri keçmiş SSRİ-dən miras qalan Abşeron yarımadasında neft hasilatı ilə bağlıdır. Burada göstərilir ki: “Azərbaycan Respublikasındakı ekoloji problemlər Sovet İttifaqının enerji ehtiyatlarına olan tələbatının ödənilməsi məqsədi ilə əsasən Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır” [3, s. 389].

Ölkəmizin ekoloq-alimlərinin təşəbbüsü ilə 2002-ci ildə ETSN-də işğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən (izləyən) operativ “Mərkəz” yaradılmışdır. Bu “Mərkəz”in əsas

məqsədi işğal olunmuş ərazilərdə ekoloji vəziyyətin öyrənilməsi, ətraf mühitə dəyən dağıdıcı ziyanın müəyyənləşdirilməsi, işğal zonalarında yaranmış ekoloji təhlükə mənbələri haqda məlumat əldə edilməsindən ibarətdir. "Mərkəz" yarandıqdan sonra 2002-ci ilin oktyabr ayında işğal olunmuş ərazilərimizin coğrafi, ekoloji vəziyyəti, fauna və florası haqqında geniş hesabat hazırlayıb məcmuə şəklində nəşr etdirilmişdir [4, s. 243].

Son illərdə ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar ölkə Prezidenti İlham ƏIiyev bir çox tədbirlərin həyata keçirilməsi ilə bağlı sərəncam vermişdir:

- "Azərbaycan Respublikasında və ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər Planı"nın təsdiq edilməsi haqqında.
- 2007-ci il iyun ayının 20-də qüvvəyə minmiş "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının № 2244 saylı Sərəncamı.
- 2007-ci il iyun ayının 20-də qüvvəyə minmiş "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının № 2245 saylı Sərəncamı.
- 2008-ci il iyun ayının 13-də qüvvəyə minmiş "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının № 2868 saylı Sərəncamı.
- 2008-ci il iyun ayının 13-də qüvvəyə minmiş "Xəzər dənizinin çirklənmədən qorunması üzrə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının № 2867 saylı Sərəncamı.
- 2008-ci il avqust ayının 6-da "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının № 2983 saylı Sərəncamı.

Qərb ölkələrində ətraf mühitin çirklənməsinin daha intensiv olmasının səbəblərindən biri bu ölkələrdə iqtisadi problemləri həll edəndə ekoloji

problemlərin əsasən unudulması, “müəssisənin gəliri hər şeydən irəlidir” tezisinin hökmranlıq etməsidir. BMT-nin məlumatlarına görə, ətraf mühitin çirklənməsinin, təxminən, 50%-ə qədəri təkcə ABŞ-ın payına düşür [5, s. 109].

Bütün dünyada ekoloji təhlükəsizlik konsepsiyasının əsasını ekoloji risk nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyənin əsas mahiyyətinin onun tətbiqi hissəsi olan - qəbul edilən risk səviyyəsinin təyin edilməsi təşkil edir. Bu yaxınlara qədər bütün dünyada ekoloji təhlükəsizlik normativləri “mütləq təhlükəsizlik konsepsiyası”na uyğun əsaslandırılırdı.Təbiətdə ekoloji-iqtisadi tarazlığın pozulmasına müxtəlif istehsal sahələri və nəqliyyatdan ayrılan zəhərli qazlar böyük təsir göstərir. Nəqliyyat vasitələrindən ayrılan zəhərli qazlar ümumi çirklənmənin, təxminən, 60%-ni təşkil edir, qalan hissəsi isə kömür, torf, neft-qaz kimi üzvi yanacaqların və digər istehsal sahələrinin payına düşür. Hazırda dünyada hasil olunan elektrik enerjisində üzvi yanacaqların payı 64%, nüvə yanacaqlarının payı isə 17%-dir [6, s. 1].

Azərbaycanda enerji istehsalının təxminən 87%-i istilik elektrik stansiyalarının (İES-in), 13%-i isə su elektrik stansiyalarının (SES-in) payına düşür. İlk növbədə Azərbaycanda, ekoloji və iqtisadi cəhətdən daha sərfəli olan, günəş və küləyin enerjisindən istifadə olunmasına daha önəmli yer verilir. Belə mənbələrdən istifadə etdikdə, onların ehtiyatı praktiki olaraq dəyişmir və azalmır, yəni təbiət tərəfindən fasiləsiz olaraq bərpa olunur. Bərpa olunmayan enerji mənbələrinə isə kömür, neft, qaz, torf və s. kimi yanacaqları aiddir [7, s. 3].

Ekoloji təhlükəsizliyin təmin edilməsi qlobal, regional və lokal səviyələrdə həyata keçirilir. Ekoloji təhlükəsizliyin qlobal idarəetmə səviyyəsi ümumilikdə biosferin və onun tərkib hissələrində baş verən proseslərin proqnozlaşdırılmasını və müşahidəsini nəzərdə tutur. XX əsrin ikinci yarısında bu proseslər özünü iqlimin qlobal dəyişikliklərində, “istixana effekti”-nin yaranmasında, ozon ekranın dağılmasında, planetin səhralaşmasında və dünya okeanının çirklənməsində büruzə vermişdir.

Qlobal nəzarətin və idarəetmənin mahiyyəti biosfer ilə ətraf mühitin saxlanılmasından və təbii yolla bərpa edilmə mexanizminin istifadəsindən ibarətdir. Bu, biosferin tərkibinə daxil olan canlı orqanızmlərin məcmusu ilə istiqamətlənir. Qlobal ekoloji təhlükəsizliyin idarə edilməsi BMT, YUNESKO, YUNEP və digər beynəlxalq təşkilatlar səviyyəsində dövlətlərarası münasibətlərin preroqatividir. Bu səviyyədə idarəetmə üsulları ətraf mühitin mühafizəsi üzrə beynəlxalq aktların qəbul edilməsi, dövlətlərarası ekoloji proqramların həyata keçirilməsi, təbii və ya antropogen xarakterli ekoloji problemlərin qarşısının alınması üzrə hökumətlərarası qüvvələrin yaradılmasını özündə birləşdirir.

Qlobal səviyyədə iri miqyaslı bir sıra ekoloji problem nisbətən öz həllini tapmışdır.Nüvə silahının yeraltı sınaqları istisna olmaqla, bütün mühitlərdə qadağan edilməsi beynəlxalq ictimaiyyətin böyük nailiyyətidir [8, s. 2].

Regional səviyyə iri coğrafi və ya iqtisadi zonaları, bəzən də bir neçə dövlətin ərazisini əhatə edir. Nəzarət və idarəetmə dövlətin hökuməti və dövlətlərarası əlaqələr səviyyəsində həyata keçirilir. Bu səviyyədə ekoloji təhlükəsizliyin idarəetmə sisteminə aşağıdakılar daxildir:

- iqtisadiyyatın ekologiyalaşdırılması;
- yeni ekoloji təhlükəsiz texnologiyalar;
- ətraf mühitin keyfiyyətinin bərpasına mane olmayan və təbii ehtiyatların səmərəli istifadə edilməsinə xidmət edən iqtisadi inkişaf tempinin saxlanılması.

Ekoloji təhlükəsizliyin lokal idarəetmə səviyyəsi şəhər, rayon, metallurgiya, kimya, neft emalı müəssisələri, dağ-mədən hasilatı sənayesinin mühafizə kompleksinə, tullantılara, axınlara və s. nəzarəti əhatə edir.Ekoloji təhlükəsizliyin idarə edilməsi sanitariya vəziyyəti və təbiəti mühafizə fəaliyyətinə görə məsuliyyət daşıyan müvafiq xidmətlər cəlb edilməklə ayrı-ayrı şəhərlərin, rayonların, müəssisələrin inzibati rəhbərləri səviyyəsində həyata keçirilir.

Konkret lokal problemlərin həlli, ekoloji təhlükəsizliyin regional və qlobal səviyyədə idarə edilməsi məqsədlərinə çatmaq imkanlarını müəyyənləşdirir.

Ekoloji təhlükəsizliyin idarəetmə səviyyəsindən asılı olmayaraq əsas idarəetmə obyekti təbii ətraf mühit hesab edilir.Məhz buna görə də, ekoloji təhlükəsizliyin idarə edilməsinin hər hansı bir səviyyəsi sxemində mütləq iqtisadiyyat, hüquqi məsələlər, inzibati tədbirlər, təhsil və mədəniyyətin analitik təhlili iştirak edir [9, s. 1].

Bildiyimiz kimi, bir çox istehsalat sahələri o cümlədən metallurgiya, kimya, neft emalı müəssisələri ətraf mühitə külli miqdarda çirkləndirici maddələr axıdırlar. Son illərdə bir sıra regionlarda atmosfer havasının ümumən pisləşməsi və onun yaxşılaşdırılması üçün gecikmədən tədbirlər görülməsinin vacibliyi, ətraf mühitə nəzarət sisteminin müasir vasitələrinin yaradılması və tətbiqi üzrə işlərin fəal aparılmasını şərtləndirir. Ekoloji təhlükəsizliyin təminatı üçün ekoloji təhlükəsiz texnologiyalardan istifadə edilməsi vacibdir [10, s. 3].

Respublikamızda ətraf mühitin əsas problemləri ekoloji problemlərə prinsipcə uyğundur. Bir sıra məqamlara xüsusi diqqət yetirilməsi məqsədəuyğundur:

a) Ermənistanın, təcavüzkar separatçı qüvvələrin respublika ərazisinin xeyli qismini işğal etməsi nəticəsində Azərbaycan dövlətinin nəzarətində olmayan zonaların meydana gəlməsi, ümumrespublika sosial-iqtisadi, mədəni kompleksinin bütövlüyünün pozulması, təbii mühitə rasional, nizamlı təsir imkanlarının azalması.

b) Biosferin zərərli tullantılarla, xüsusən neft mənşəli və süni tullantılarla çirklənməsi təxirəsalınmaz işlər görülməsini tələb edir.

c) Səs təsirlərinin (xüsusən şəhərlədə) çoxalması, şəhərdə və şəhər ətrafında bəzi ərazilərin hədsiz dərəcədə yüklənməsi, göydələn binaların ucaldılmasında, onların istifadə olunmasında zəruri standartlara və normativlərə əməl edilməməsi.

d) Məhsuldar torpaqların, istirahət üçün istifadə oluna biləcək sərbəst ərazilərin azalması, bərpaedici işlərin sistemli, müntəzəm aparılmaması və s.

Respublikada ekoloji vəziyyəti yaxşılaşdırmaq mövcud prioritetləri aradan qaldırmaq üçün dünya ölkələri ilə əməkdaşlıq edilir. Misal üçün qeyd edək ki,

BMT-nin Ətraf Mühitin Mühafizəsi Təşkilatı Azərbaycanın ekoloji vəziyyətini öyrənmək üçün mütəxəssislər göndərir. Xəzərin, Abşeron rayonunun ekoloji vəziyyəti öyrənilmiş və böhrandan çıxmaq üçün proqram hazırlanmış, beynəlxalq fond yaradılmışdır. Tehranda 1998-ci il may ayında Xəzərətrafı dövlətlərin Xəzərin Ekoloji Proqramını həyata keçirmək üçün konfransı çağırılmışdır. Konfransın işində Dünya Bankı, BMT İnkişaf proqramı, Qlobal Ekoloji Fond, Ümumdünya Metreoloji Mərkəz və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdir [11, s. 2].

Ekoloji təhlükəsizliyinin əsas şərtləri aşağıdakılardır:

- təbii mühitin mühafizə edilməsi və yaxşılaşdırılması;
- təbii ehtiyatlardan səmərəli istifadə olunması;
- təbii mühitin sağlam şəkildə gələcək nəsilə verilməsi.

Belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının ekoloji sahədə əsas milli maraqları cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılması, həmçinin ətraf təbii mühitin qorunmasıdır.

Beləliklə bu məqalədə belə bir nəticə hasil olunur ki:

1. Atmosfer havasına atılan zərərli maddələrin azaldılması, çay sularının çirklənməsinin qarşısının alınması, Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ozon qatının, biomüxtəlifliyin qorunub saxlanması kimi son dərəcə mühüm əhəmiyyətli ekoloji problemlərin uğurlu həlli üçün regional və beynəlxalq əməkdaşlığın hər zaman davam etdirilməsi olduqca zəruridir.

2. Ölkənin ekoloji strategiyasının əsasını təşkil edən proqramların qəbul edilməsi, müvafiq fərman və sərəncamların imzalanması, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii şəraitdə yaşaması və təbii sərvətlərdən səmərəli istifadə sahəsində həyata keçirilən siyasət Azərbaycanda mövcud olan ekoloji problemlərin aradan qaldırılmasına xidmət edir.

3. Ekoloji təhlükəsizlik beynəlxalq və milli təhlükəsizliyin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Daha dəqiq ifadə etsək, ekoloji təhlükəsizlik meyarı təhlükəsizliyin digər növləri ilə tam şəkildə əlaqələndirilməlidir.

## Biblioqrafiya


1. Ataşova Ü., Sultanov R., Sadıqova N. Ümumi ekologiya. Bakı, 2010.
2. Ağayev T., Əhmədov Ş., Xəlilov T. Ekoloji təhlükəsizlik. Sumqayıt, 2013.
3. Hüseynov E., Həşimov A., Məmmədov Q., Məmmədova S. İnsan ekologiyası. Bakı, 2015.
4. Məmmədov Q., Məmmədova S., Hüseynov E., Həşimov A. Sosial ekologiya. Bakı, 2015.
5. Xəlilov T., Zeynalova M. Qlobal ekoloji problemləri. Bakı, 2014.
6. http://www.e-qanun.az/framework/3851
7. https://az.wikipedia.org/wiki/Ekoloji_t%C9%99hl%C3%BCk%C9%99sizlik
8. http://www.vertic.org/media/National%20Legislation/Azerbaijan/AZ_Law_Environmental_Protection.pdf
9. http://eco.gov.az/az/19-qanunvericilik
10. http://www.ombudsman.gov.az/az/view/pages/79
11. http://www.rights.az/qanunvericilik/mecelle/93-azerbaycan-respublikasinin-inzibati-xetalar-mecellesi/230